

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 21 iyun 2025-ci il №44 (2953) https://mod.gov.az Qiymәti 30 qəpik


## Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

## Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 19-da Türkiyəyə işgüzar səfər edib.*

Kahramanmaraş Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan qarşılayıb.

* * *

İyunun 19-da Kahramanmaraşda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.

* * *

İyunun 19-da Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan tədbirdə iştirak ediblər.

Mərasimdə Azərbaycanın və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Sonra "Azərbaycan" məhəlləsinə həsr edilmiş videoçarx nümayiş etdirilib.



Azərbaycan Respublikasının Prezidenti tədbirdə çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğan.

Sayın tədbir iştirakçıları, əziz kahramanmaraşlılar.

İlk növbədə sizə Azərbaycan xalqının ən səmimi salamlarını çatdırıram. 2023-cü il fevralın 6-dakı dəhşətli zəlzələ nəticəsində həlak olmuş, həyatını itirmiş bütün bacı-qardaşlarımıza Allahdan bir daha rəhmət diləyirəm.

Azərbaycan xalqı bu faciəni öz faciəsi kimi qəbul etdi. İlk gündən on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində insani yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq borcunu yerinə yetirməyə başlamışdır. Zəlzələdən dərhal sonra əziz qardaşımın, hörmətli Cümhurbaşqanının liderliyi ilə axtarış-xilasetmə işləri başlamış, ondan sonra yenidənqurma və inşaat işlərinə start verilmişdir. Qısa müddət ərzində on minlərlə insan yeni mənzillərlə təmin edildi. Bu, bir daha Rəcəb Tayyib Ərdoğanın öz xalqına bağlılığını, sevgisini və güclü iradəsini göstərən amildir. Eyni zamanda, bu, güclü Türkiyənin təzahürüdür. Çünki ancaq güclü dövlət qısa müddətdə bu qədər böyük yenidənqurma və inşaat işləri görə bilər.

Azərbaycan dərhal mindən çox heyəti, o cümlədən axtarış-xilasetmə üzvlərini, könüllüləri, həkimləri Türkiyənin zəlzələ bölgələrinə göndərmiş və dərhal işə başlamışdır. Azərbaycan heyətləri tərəfindən 53 insan dağıntılar altından sağ çıxarılmış, bizim qurduğumuz iki səhra hospitalında 3200 insana Azərbaycan həkimləri tibbi yardım göstərmişdir.

Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub və bu gün "Azərbaycan" məhəlləsinin açılışında əziz qardaşımla birlikdə iştirakım bir daha bizim birliyimizin, dostluğumuzun təzahürüdür.

(Ardı 2-ci səhifədə)

## “Türkiyə regionda gərginlik fonunda dövlət sərhədinin mühafizəsinə dair tədbirləri gücləndirib”

Türkiyə İran və İsrail arasında gərginliyin artması fonunda, hava məkanının qorunması da daxil olmaqla, dövlət sərhədində təhlükəsizlik tədbirlərini gücləndirib.

AZƏRTAC bu barədə Türkiyənin Milli Müdafiə Nazirliyinə istinadla xəbər verir.

Türkiyə Müdafiə Nazirliyi tərəfləri regionda qarşıdurmanın miqyasını genişləndirən addımlardan çəkinməyə çağırıb. Eyni zamanda, Müdafiə Nazirliyi ölkənin hava məkanının pozulması ilə bağlı iddiaları təkzib edib.

"Türkiyənin çoxsəviyyəli hava hücumundan müdafiə sistemi var. Türkiyə Hərbi Hava Qüvvələri hava məkanının pozulması ilə bağlı hər hansı insidentin qarşısını almaq üçün reydlər keçirir", - deyə nazirlik əmin edib.

Nazirlik onu da bildirib ki, regionda vəziyyətin gərginləşməsi ilə əlaqədar qeyri-qanuni sərhəd keçidlərinin sayında artım müşahidə olunmayıb. "Türkiyə Silahlı Qüvvələri qeyri-qanuni miqrasiyanın qarşısının alınması üçün tədbirləri gücləndirir", - deyə Türkiyə Müdafiə Nazirliyi bildirib.

## “Qürurluyam ki, qalib ordunun əsgəriyəm”

***Bu gün burada, Azərbaycan Ordusunun hərbi formasını daşıyaraq çıxış etmək mənim üçün böyük şərəfdir. Əsgər olmağın əsl mənasını burada daha dərindən anlayır, dərk edirəm. Biz burada Vətənimizi qoruyuruq. Biz burada dədə-babalarımızın qədim yurd yerlərini qoruyuruq. Biz tariximizi qoruyuruq. Biz xalqımızın sarsılmaz dayağıyıq, millətimizin güvənc yeriyik.***

(Ardı 5-ci səhifədə)

## “Şəhid ömrünün davamı ömürlərimizdədi”



Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi 28 il davam etdi. Ordu atəşi heç zaman kəsməyən atəşkəs vaxtında da düşmənin hücumlarının qarşısını alırdı, işğalın miqyasının genişlənməsinə imkan vermirdi. O illərdə də düşmən ön xətdə hərbi əməliyyatlar keçirirdi. Belə əməliyyatların birində mövqe məğlubiyyətinə uğrayan düşmən geri çəkilməyə məcbur olmuşdu. Döyüşün içində qalmış işlək tankı çıxartmağı komandir Nail Mahmudova və daha iki əsgərə tapşırmışdı. Əsgərlər tanka çata-çatda ora düşmən mərmisi düşmüşdü, Nail şəhid olmuşdu...

(Ardı 6-cı səhifədə)

## Güc həm də mənəvi qüdrətdir

Azərbaycan Ordusu müasir dövrdə regionun ən güclü orduları sırasındadır. Qalib ordumuz ərazi bütövlüyümüzün, xalqımızın təhlükəsizliyinin və dövlət müstəqilliyimizin təminatçısıdır. Vətən müdafiəçilərimiz 44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərlə təsdiqlədi ki, qələbə təkcə hərbi texnika və silah gücünə deyil, eyni zamanda, hər bir hərbi qulluqçunun yüksək fiziki hazırlığına, əzmkarlığına və onların ruh yüksəkliyinə söykənir. Həmçinin qələbəni şərtləndirən amillərdən biri də şəxsi heyətin fiziki hazırlığıdır. İstər təlimdərslərdə, istərsə də döyüş meydanında fiziki göstəriciləri yüksək olan əsgər döyüş tapşırıqlarını çevik, dəqiq və vaxtında yerinə yetirir. Ona görə də döyüş hazırlığının ayrılmaz hissələrindən biri də fiziki hazırlıqdır.

(Ardı 8-ci səhifədə)



## Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününə həsr olunmuş şahmat turniri keçirildi



Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi ölkənin hərbi qurumlarında çalışan hərbi qulluqçuların və mülki şəxslərin sosial rifahını qorumaq məqsədilə genişmiqyaslı fəaliyyət həyata keçirir.

Komitə yalnız sosial məsələlərlə kifayətlənmir, əməkdaşların asudə vaxtının səmərəli təşkili üçün də mühüm layihələr reallaşdırır, kollektivində ruh yüksəkliyi yaradır.

Komitə qarşıdakı dövrdə sosial rifahın daha da yaxşılaşdırılması, ordu içində həmrəyliyin gücləndirilməsi və vətənpərvərlik dəyərlərinin təbliği istiqamətində fəaliyyətini davam etdirmək niyyətindədir. Mülki işçilərin hüquqlarının müdafiəsi, sosial təminat və mədəni həyatın zənginləşdirilməsi komitənin əsas prioritetlərindəndir.

(Ardı 5-ci səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub

(Əvvəli 1-ci səhifədə)

Qarabağ məsələsində də qeyd etdiyiniz kimi, biz əziz qardaşım, hörmətli Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanla savaşın ilk günündən çiyin-çiyinə, bir yerdə idik. Savaşın ilk saatlarında Türkiyə Cümhurbaşqanının bizə göstərdiyi dəstək, həmrəylik, siyasi dəstək, mənəvi dəstək, Türkiyə xalqının bizimlə bərabər olması bizim gücümüzə güc qatıb. Biz tarixi ədaləti bərpa etdik və bu gün Azərbaycan xalqı öz əzəli torpağında rahat və təhlükəsizlik şəraitində yaşayır.



"Azərbaycan" məhəlləsinin yaradılması da çox gözəl hadisədir, burada 90-dan çox bina inşa edilib, 1200 mənzildə bizim türkiyəli bacı-qardaşlarımız yaşayacaq. Məktəb, uşaq bağçası var, mədəniyyət mərkəzinin inşası da nəzərdə tutulur. Biz yaxşı günlərdə də, ağır günlərdə də daim bir-birimizin yanındayıq, bir-birimizin gücünü artırırıq. Bu gün Türkiyə-Azərbaycan qardaşlığı, birliyi nəinki bölgəmiz üçün, dünya miqyasında önəmli amildir, təhlükəsizlik, işbirliyi, inkişaf və qardaşlıq rəmzidir.




Dörd il bundan öncə hörmətli Cümhurbaşqanı ilə Şuşa şəhərində imzaladığımız Şuşa Bəyannaməsi bizim əlaqələrimizi ən yüksək zirvəyə qaldırmışdır. Şuşa Bəyannaməsi bizim əlaqələrimizi rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik. Türkiyə və Azərbaycan - iki qardaş ölkə həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə bir-birinin yanında inamla, uğurla irəliləyir.

Bu gün ilk dəfə olaraq bu gözəl diyarı ziyarət edirəm. Mən Türkiyənin bir çox yerində olmuşam. Gözəl Türkiyənin gözəl təbiətini görmüşəm. Burada da, qədim türk torpağı Kahramanmaraşda olmağımdan da çox məmnunam. Kahramanmaraşlılar dəhşətli zəlzələ ilə üz-üzə qalaraq öz iradələrini göstərdilər, sınmadılar, əyilmədilər. Bilirdilər və inanırdılar ki, onların arxasında güclü lider Rəcəb Tayyib Ərdoğan dayanır. Onların arxasında güclü Türkiyə dayanır. Bu, təbii ki, bir daha kahramanmaraşlıların nə qədər öz doğma xalqına, liderinə, dövlətinə bağlı olmasını göstərir.

Zəlzələ bölgələrində yaşayan bütün insanlara Azərbaycan xalqının hörmətini, sevgisini ifadə edirəm. Siz bilirsiniz və bilməlisiniz ki, Azərbaycanda sizin 10 milyon bacı-qardaşlarınız var. Azərbaycanlılar da bilirlər ki, Türkiyədə 80 milyondan çox bacı-qardaşlarımız var.

Yaşasın Türkiyə! Yaşasın Türkiyə-Azərbaycan birliyi, qardaşlığı!

* * *

Sonra Türkiyə Respublikasının Prezidenti çıxış edib.

### Prezident Rəcəb Tayyib Ərdoğanın çıxışı

- Əziz qardaşım, cənab Prezident İlham Əliyev.

Hörmətli qonaqlar, əziz kahramanmaraşlılar.

Digər əyalətlərimizdəki hörmətli qardaşlarım.

Sizi ən səmimi duyğularımla, həsrətlə, sevgi ilə salamlayıram.

Buradan sizin vasitənizlə məhəllələri, rayonları və evləri ilə bütün Maraşa salamlarımı, ehtiramımı göndərirəm. Eyni qaydada, canlı bağlantı ilə hazırda bizi izləyən vətəndaşlarımı da Maraşdan hörmətlə salamlayıram. Açılışını etdiyimiz "Azərbaycan" məhəlləsinə töhfə verən Can Azərbaycandakı on milyon bacı-qardaşlarımızı hörmətli dostum, qardaşım Prezident İlham Əliyevin şəxsində ürəkdən salamlayıram.

Sizin qarşınızda İlham qardaşıma və hörmətli heyətinə ikinci evləri olan Türkiyəyə "Xoş gəldiniz!" deyirəm. Belə mənalı və bizim üçün əlamətdar bir mərasimlə əlaqədar onları Maraşda qəbul etməkdən məmnunluq duyuruq.

Bəli, bu gün burada "Bir millət, iki dövlət" şüarının həyata keçməsinə bir daha şahidlik edirik. Çünki biz eyni bayrağın kölgəsində dua edən, eyni səccadədə göz yaşı tökən, eyni istiqlal üçün qurban verən bir millətin, iki dövlətin tək ürək daşıyan övladlarıyıq. "Ayrılarmı könül candan, Türkiyə Azərbaycandan", - deyən şairlərin sözlərə hərfbəhərf nəqş etdiyi qardaşlığımızın nə məna daşıdığını bu gün bütün dünyaya yenidən göstəririk. Rəbbim aramızdakı bu sarsılmaz həmrəyliyi, bu məhəbbəti daimi etsin.

İlham qardaşıma və heyətinə kahramanmaraşlılar adından təşəkkür edirəm. Burada, ilk növbədə, bunu vurğulamaq istəyirəm: Türkiyə ilə Azərbaycan arasındakı tale birliyinin ən konkret nümunələrindən biri açılışını etdiyimiz mənzillərdir. Bilirsiniz, 2023-cü il fevralın 6-da tariximizin ən böyük təbii fəlakətlərindən birini yaşadıq. Keçmişdən bu günə bir çox kədərli xatirələrimiz oldu. Ancaq həmin gün 11 əyalətimizdə gördüyümüz fəlakət və dağıntılar hamısından ayrı idi, 12 min 796-sı Maraşda olmaqla 53 min 735 canımızı torpağa tapşırdıq. Rəbbim bizə belə bir faciəni bir daha yaşatmasın. Fürsətdən istifadə edərək, zəlzələdə həyatını itirən bacı-qardaşlarımıza bir daha Allahdan rəhmət, digər bacı-qardaşlarıma səbir diləyirəm.




Şükür olsun, zəlzələnin ilk anından etibarən inancımızı itirmədik. Yaşadığımız imtahan qarşısında bir gün belə ümidsizliyə qapılmadıq. Millətimizlə könül-könülə verdik və sürətlə özümüzü topladıq.

Əlbəttə, əziz qardaşlar, bu çətin dövrdə ölkəmizin köməyinə ilk gələnlərdən biri Can Azərbaycandır. Fəlakət xəbərini alar-almaz "Səninləyəm, Türkiyəm!" - deyərək qardaş köməyi başladan, avtomobilinin tavanına varını-yoxunu yığaraq millətimizə kömək etməyə çalışan, duaları, dəstəkləri, səmimi göz yaşları ilə kədərimizi bölüşən Azərbaycan xalqının həmrəyliyini heç vaxt unuda bilmərik və unutmayacağıq. Xüsusilə, İlham qardaşımızın və hörmətli həyat yoldaşı Mehriban xanımın yardım səfərbərliyimizə verdiyi böyük töhfənin könlümüzdə daim ayrı bir yeri var.

"Azərbaycan" məhəlləmiz bizim ən mötəbər layihələrimizdən biridir, qürur tablomuzdur. Zəlzələ nəticəsində dağılan bu məhəllə indi Azərbaycanın dəstəyi ilə yenidən canlanır. İlham qardaşımın da daim nəzarətdə saxladığı bu layihə burada məskunlaşacaq qardaşlarımıza etibarlı, firavan yuva, görənlərin həsəd aparacağı, özünə heyran qoyacağı bir əsər olacaq, inşallah. Təkcə evləri ilə deyil, parkları, bağları, mədəniyyət mərkəzi, Heydər Əliyev adına orta məktəbi ilə bura Türkiyə yüzilliyinin qabaqcıl şəhərlərinə yaraşacaq bir yaşayış sahəsi olaraq dirçəldilir. Hazırda burada ümumilikdə 2778 mənzilin, mağazanın və ofisin inşası sürətlə davam edir. Bu gün artıq layihələrimizin demək olar ki, yarısını başa çatdırdıq. İnşallah, ilin sonuna qədər qalan işlərimizi də başa çatdırıb öz sahiblərinə təhvil verəcəyik.



Burada böyük məmnunluqla demək istəyirəm ki, cənab İlham Əliyevin liderliyi ilə yardım edən bu qardaşlıq əli Maraşın qəlbinə qardaşlıq möhürünü vurub. Burada atılan hər addımda, vurulan hər mismarda - istər Anadoluda, istər Azərbaycanda olsun - türkün alın təri, səmimiyyəti və duası vardır. Rəbbim onlardan razı olsun. Fəhləsindən mühəndisinədək əməyi keçən hər bir qardaşıma, azərbaycanlı qardaşlarımızın hamısına təşəkkürlərimi bildirirəm. Azərbaycan Mənzil İnşaatı Dövlət Agentliyinə və Mənzil İnşaatı İdarəmizin rəhbərliyinə ayrılıqda şəxsən öz adımdan və millətim adından təbriklərimi çatdırmaq istəyirəm. Məhəlləmizin sakinlərinin yeni evlərində firavanlıqla, cansağlığı və könül xoşluğu ilə gözəl günlərdə şad-xürrəm yaşamalarını arzu edirəm.

Əziz maraşlılar, çox hörmətli qonaqlar, buradakı kimi layihələrlə "Əsrin fəlakəti"ndə dağılan şəhərlərimizə ümid, gələcəyimizə güvən verəcək yeni şərait yaradırıq. Mənzil layihələri ilə yanaşı, sosial təminat sahələri, infrastruktur layihələri ilə yeni yaşayış sahələri qururuq. Tarixi əraziləri öz əslinə uyğun şəkildə yenidən canlandırırıq. Kahramanmaraşda, Qapalı çarşıda qeydiyyatda olan mədəniyyət abidələrimizi təmir edir, tarixi Dəmirçilər çarşısında iş yerləri inşa edirik. Adıyamanda tarixi şəhər meydanımızı, Malatyada Şire bazarını, Kuyumcular, Yüzüncü il və Bakırcılar çarşılarını, Hatayda Uzun çarşını, Habib-i Neccar məscidimizi, yüzlərlə illik Kamal Paşa və Qurtuluş prospektlərini tarixi görkəminə uyğun olaraq dirçəldirik.

Dünyadakı və bölgəmizdəki şərtlər nə olursa-olsun, bizim prioritetimiz bəllidir. Biz hökumət olaraq ən qısa müddətdə "Əsrin fəlakəti"nin şəhərlərimizdə açdığı yaraları sarımaq dərdindəyik. İqtidarımızın heç bir dövründə millətimizə xəyal qırıqlığı yaşatmadıq. Seçki meydanlarında verdiyimiz sözləri, inşallah, burada da yerinə yetirəcəyik.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan hər zaman Türkiyənin yanında olub, Türkiyə də hər zaman Azərbaycanın yanında olub



(Əvvəli 2-ci səhifədə)

İnşallah, bu anlayışla zəlzələ bölgəsini nəhəng tikinti meydanına çevirdik. İnanın, heç bir ölkə belə böyük təbii fəlakətin altından bu qədər sürətli şəkildə qalxa bilməz. Fəlakətin ilk günündən indiyədək demək olar ki, bir Avropa ölkəsi böyüklüyündə ərazini inşa etdik. On bir əyalətimizdə qurulan inşaat meydanlarında yüz minlərlə memar, mühəndis və fəhlə qardaşımız gecə-gündüz işlədi. "Əsrin inşa"sı çərçivəsində təhvil verdiyimiz evlərin sayı hər ötən gün artır. Siz də görürsünüz, müxalifət tamamilə özlərinin daxili çəkişmələri ilə məşğul olarkən biz infrastrukturu və yüksəkkeyfiyyətli işlərlə başa çatdırdığımız mənzilləri öz sahiblərinə təhvil veririk. İstismara verdiyimiz mənzil, kənd evi və iş yerinin sayını sentyabrda 100 minə, oktyabrda 130 minə, noyabrda 155 minə, yanvarda 201 minə çatdırdıq. Bu gün bu rəqəmi 250 minə çatdırırıq.

Bir azdan birbaşa bağlantı ilə həyata keçirəcəyimiz püşkatmada Hatayımızda 21 min 114 mənzil və 1125 iş yeri, Malatyamızda 8064 mənzil və 1097 iş yeri, Adıyamanımızda 3554 mənzil və 1723 iş yeri, Qaziantepimizdə 675 mənzil, Diyarbəkirimizdə 2636 mənzil, Adanamızda 490 mənzil, Şanlı Urfamızda 1263 mənzil, Elazığımızda 1429 mənzil, Osmaniyemizdə 1336 mənzil, Kilisimizdə 105 mənzil, Sivasımızda 85 mənzil, Kayserimizdə 49 mənzil, Kahramanmaraşımızda 3567 mənzil və 744 iş yeri olmaqla, ümumilikdə, 49 min 56 mənzil və mağazanı sahiblərinə təhvil verəcəyik. Hədəfimiz 2025-ci ilin sonunadək 453 min mənzil və obyektin inşasını başa çatdırmaqdır.

İndiyədək zəlzələ bölgəmizə 2 trilyon lirədən çox sərmayə yatırdıq. Əsrin fəlakəti tamamilə aradan qalxsın deyə 2025-ci il büdcəmizdə 584 milyard lirə vəsait ayırdıq. İlin sonunda bütün şəhərlərimizi yenidən ayağa qaldırmağı, geridə yarımçıq qalan bir hekayə də buraxmamağı hədəfləyirik. Müxalifət anlamasa da, yaşadığımız proses milli mücadiləyə bərabərdir. Biz Allahın izni ilə bu mübarizəni alın ağlığı ilə aparırıq.

Nə deyirdilər? Hökumət bu dağıntının altından qalxa bilməz. Bu acgözlərə baxmayaraq, əzmlə, səbirlə, qətiyyətlə çalışırıq. Həmişə deyirəm, hər kəsin dənizi üfüqü qədərdir. Hər seçki dövründə böyük-böyük atıb-tutan, indi zəlzələ bölgəsinin yolunu belə xatırlaya bilməyənlərin üfüqü də ancaq sandıqları qədərdir. İşləri bitdikdə, təəssüf ki, millət ağlarına da gəlmir. Kreslo davasından, gəlir mübarizəsindən başlarını belə qaldıra bilmirlər. Həqiqətən də, acınacaqlı haldadırlar.

Qardaşlarım, bizim kompasımız heç vaxt müxalifət olmadı. Biz 23 ildir olduğu kimi, yenə də ancaq işimizə baxırıq. Onlar ümidsizlik yayacaq, biz isə zəlzələdən əziyyət çəkən qardaşlarımızın ümidi, yoldaşı, tale dostu olacağıq. Onlar "Bacarmayacaqsınız" deyəcək, biz şəhərlərimizi hamımız birlikdə daha güclü şəkildə ayağa qaldıracağıq. Onlar mane olacaq, biz ya bir yol tapıb, ya da bir yol açıb maneələrin öhdəsindən gələcəyik. Onlar didişərkən, dava edərkən, boş-boş işlərlə günlərini keçirərkən, biz Kahramanmaraşla birlikdə bütün Türkiyəyə sevgi ilə xidmət edəcəyik. Səksən altı milyon olaraq hamımız birlikdə güclü sabahlara addımlayacağıq.

Ümidvar olmağımız üçün əlimizdə bir çox səbəbimiz var. Baxın, bunun ən gözəl örnəyi Kahramanmaraşın "İstiqlalspor"udur. 6 fevraldan əvvəl həvəskar liqada mübarizə aparan bu idman klubumuz zəlzələdə 14 idmançısını itirib. Futbol Federasiyası tərəfindən üçüncü liqaya alınan klubumuz fəaliyyətinə bir il ara vermişdi. Keçən il futbolda ikinci liqaya, basketbolda birinci liqaya yüksəldi. Onları təbrik edir, uğurlarının davamlı olmasını diləyirəm. Oxşar uğur nümunələrinin zəlzələdən təsirlənən digər əyalətlərimizdə də olduğunu çox yaxşı bilirəm.

Qardaşlarım, sizlərlə Kahramanmaraşın övladı rəhmətlik Abdülrahim Karakoçun Xocalı qətliamından dərhal sonra Qarabağa həsr etdiyi duyğu dolu misralarla sağollaşmaq istəyirəm:

Bəxtinə ağlayan Azəri qızı,
Sən Qarabağ deyirsən,
mən Qarayazı.
Boşluqda çırpınır
Türkün avazı,
Sanma ki, dərdlərin
azı bizdədir,
Sizdəki yaranın özü bizdədir.

"Gəl, qardaş" deyirsən,
gələcək yol yox,
Şəhidlər qəbrinə
qoyacaq gül yox.
Çiləsiz saat yox,
davasız il yox.
Güllələr sizdədir, ağrı bizdədir,
Sizdəki yaranın özü bizdədir.

Belə gəlib, belə getməz
bu oyun,
Zalımları islah etməz
bu oyun,
Umduqları kimi bitməz
bu oyun.
Məzlumun çörəyi-duzu bizdədir.
Sizdəki yaranın özü bizdədir.

Bəli, mərhum şairimiz bundan otuz il əvvəl "Belə gəlib, belə getməz" demişdi. Rəbbim İlham qardaşımın Ali Baş Komandanlığı ilə tam otuzillik işğalın və zülmün ardından Qarabağın azadlığına qovuşduğunu bizlərə göstərdi. Üç həftə əvvəl 28 May - Müstəqillik Günü münasibətilə Laçında idik. Füzuli və Zəngilandan sonra Laçın Beynəlxalq Hava Limanını da İlham qardaşımla birlikdə istifadəyə verdik. İşğaldan azad edildikdən sonra Qarabağın hər tərəfində inkişaf və bərpa işləri sürətlə davam edir. Azərbaycan ilə Ermənistan arasında sülhün əldə olunması ilə, inşallah, bu işlər daha da sürətlənəcək.

Allah Azərbaycan ilə birliyimizi və diriliyimizi daimi etsin! Bu düşüncələrlə Can Azərbaycanın 15 İyun - Milli Qurtuluş Gününü ən səmimi diləklərimlə bir daha təbrik edirəm. Zəlzələ nəticəsində itirdiyimiz canları bir daha rəhmət və ehtiramla yad edir, İlham Əliyev qardaşımın şəxsində Azərbaycan xalqına həmrəyliyi, dəstəyi və duaları üçün ən səmimi təşəkkürlərimi bildirirəm.



Püşklərini atacağımız yeni mənzil və iş yerlərimizin bir daha xeyirli olmasını diləyir, mənzillərin inşasında əməyi keçən Ətraf Mühit Nazirliyimizi, Mənzil İnşaatı İdarəmizi, Fəlakət və Fövqəladə Halların İdarə Edilməsi Birliyimizi, xeyriyyəçilərimizi və bütün qardaşlarımı təbrik edirəm.

Hamınızı bir daha hörmətlə, sevgi ilə salamlayır, Allaha əmanət edirəm. Sağ olun, var olun, salamat qalın!

* * *

Daha sonra prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsində inşa olunacaq mədəniyyət mərkəzinin onlayn formatda təməlini qoyublar.



Zəlzələdən zərər görmüş bir sıra ailələrə yeni mənzillərin açarları təqdim olunub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsinin açılışını bildirən rəmzi lenti kəsiblər.

Prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan "Azərbaycan" məhəlləsini gəziblər, burada inşa edilmiş mənzillərə baxıblar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Kahramanmaraşdakı "Azərbaycan" məhəlləsində inşa edilmiş Heydər Əliyev adına ibtidai məktəbdə və uşaq bağçasında yaradılan şəraitlə tanış olublar.

Azərbaycan və Türkiyənin dövlət başçılarını balacalar böyük sevinclə qarşılayıblar.

Sonra prezidentlər məktəbin müəllim və şagirdlərinin ifasında "Çırpınırdı Qara dəniz" mahnısını dinləyiblər.

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan məktəbin 4-cü sinfini bitirən şagirdlərə qiymət cədvəllərini təqdim ediblər. Dövlət başçıları tərəfindən şagirdlərə, həmçinin məktəbli çantaları hədiyyə olunub.

Üçmərtəbəli müasir məktəb və uşaq bağçası binasında 20 ibtidai sinif otağı, 3 uşaq bağçası otağı var. Burada təhsilə dəstək məqsədilə əlavə otaqlar da uşaqların ixtiyarına verilib. Binada zəruri tədris materialları ilə təchiz olunmuş fənn otaqları, musiqi, rəsm, əmək dərslərinin keçirilməsi üçün otaqlar, texnologiya, riyaziyyat və mühəndislik sahələrində bacarıqların təkmilləşdirilməsi üçün emalatxanalar yaradılıb.

* * *

Qeyd edək ki, 2023-cü ilin fevralında Türkiyənin cənub-şərqində baş verən dəhşətli zəlzələdən dərhal sonra Azərbaycan dövləti və xalqı qardaş ölkənin yanında olub.

Fəlakətin ilk günlərindən qardaş ölkəyə kömək üçün Prezident İlham Əliyevin tapşırığı ilə bütün imkanlar səfərbər edilib. Axtarış-xilasetmə işlərində iştirak etməklə yanaşı, ölkəmizin həm dövlət qurumlarının, həm də qeyri-hökumət təşkilatlarının səyləri digər istiqamətlərə yönəldilib.

Dövlətimizin başçısının digər bir mühüm tapşırığına əsasən, Azərbaycanın qardaş ölkəyə uzunmüddətli dəstəyi üçün Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin inşasına start verilib.

Tikinti işləri Azərbaycanın Mənzil İnşaatı Dövlət Agentliyi tərəfindən həyata keçirilib. Ərazisi 27,6 hektar olan məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası, Heydər Əliyev adına ibtidai məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və digər sosial obyektlər inşa olunub. Həmçinin burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılacaq.

2024-cü il sentyabrın 11-də Heydər Əliyev adına ibtidai məktəbin və uşaq bağçasının açılışları olub.

"Azərbaycan" məhəlləsinin Baş planı üzrə 7, 8, 11 və 12-ci kvartalların tikintisi artıq tamamlanıb. 4 kvartalda 26 yaşayış binası yerləşir. Binalar hamısı 4 mərtəbəlidir. Bu binalarda ümumilikdə 456 mənzil, 328 qeyri-yaşayış obyekti inşa edilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyəyə işgüzar səfəri iyunun 19-da başa çatıb.

Kahramanmaraş Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentinin şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Dövlətimizin başçısını Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan yola salıb.

**AZƏRTAC-ın materialları əsasında**

# Minskdə Azərbaycan və Belarus müdafiə nazirləri görüşüblər





Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Belarus Respublikasına rəsmi səfəri davam edir.

Müdafiə Nazirliyi xəbər verir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti Minsk şəhərində yerləşən Qələbə meydanındakı Qələbə abidəsini ziyarət edib və abidə önünə əklil qoyub.

Belarus Respublikasının Müdafiə Nazirliyində Azərbaycan Respublikasının müdafiə nazirinin rəsmi qarşılanma mərasimi təşkil olunub. Müdafiə nazirləri fəxri qarovul dəstəsinin önündən keçiblər. Hər iki ölkənin Dövlət himnləri səsləndirilib.

General-polkovnik Z.Həsənov ilə Belarus Respublikasının müdafiə naziri general-leytenant Viktor Xrenin arasında görüş keçirilib.

Görüşdə regional təhlükəsizlik məsələləri, hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər mövzular müzakirə olunub.

Səfər proqramına uyğun olaraq, Azərbaycan nümayəndə heyəti, həmçinin Belarus Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyasının Baş Qərargah Fakültəsini ziyarət edib. Burada hərbi təhsil sistemi, kadrların hazırlanması, struktur və vəzifələr barədə brifinq təqdim olunub.

Rəsmi səfər zamanı Belarus Hərbi Hava Qüvvələri və Hava Hücumundan Müdafiə Qoşunlarının Mərkəzi Komanda Məntəqəsində (MKM) olan Azərbaycan müdafiə nazirinə MKM-in əsas fəaliyyət istiqaməti ilə bağlı ətraflı məlumat verilib.

# Ankarada Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə təntənəli qəbul keçirilib

İyunun 18-də Ankaradakı "Qazi Ordu Evi"ndə Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə təntənəli qəbul mərasimi təşkil olunub.

AZƏRTAC xəbər verir ki, ölkəmizin Türkiyədəki səfiri Rəşad Məmmədov və Vətən Müharibəsi Qəhrəmanı, hərbi attaşe general-mayor Zaur Zeynalovun adından təşkil olunan tədbirdə Türkiyənin milli müdafiə naziri Yaşar Gülər, xarici diplomatik missiyaların hərbi attaşeləri, iki qardaş ölkənin ictimaiyyət nümayəndələri və digər rəsmi şəxslər iştirak ediblər.





Tədbir iştirakçılarına müraciət edən general-mayor Zaur Zeynalov Azərbaycan və Türkiyə arasındakı sarsılmaz dostluq və qardaşlıq münasibətlərini vurğulayıb, 44 günlük Vətən müharibəsi və birgünlük antiterror əməliyyatı zamanı göstərilən qəhrəmanlıq nümunələrini xatırladaraq Azərbaycanın ərazi bütövlüyü və suverenliyinin bərpa olunduğunu xatırladıb.



Türkiyənin milli müdafiə naziri Yaşar Gülər isə çıxışında müasir çağırışlar fonunda iki qardaş ölkənin birliyi və həmrəyliyinin əhəmiyyətinə toxunub. "Türkiyə və Azərbaycan mühüm strateji ərazidə yerləşirlər. Ölkələrimizin müdafiə gücünün və hərbi əməkdaşlığının gücləndirilməsi seçim deyil, zərurətdir".

Nazir onu da bildirib ki, Ankara və Bakı ayrılmaz qardaşlıq bağları ilə birləşmiş strateji tərəfdaşlardır. "Ölkələrimiz istənilən şəraitdə birliyi qoruyub saxlamalı və bir-birini dəstəkləməlidir. 44 günlük müharibədə qazanılan Zəfər təkcə Azərbaycanın şanlı tarixinin səhifəsi deyil, eyni zamanda, bütün Türk dünyasının qürur mənbəyidir. Bu Qələbə Cənubi Qafqazda sülh və sabitlik üçün mühüm əhəmiyyət daşıyır", - deyə Gülər qeyd edib və yaxın zamanda bölgədə dayanıqlı sülhün təmin olunacağına ümidini ifadə edib.

Qəbul konsert proqramı ilə davam edib. Tədbir çərçivəsində Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin Şanlı tarixini əks etdirən fotosərgi də nümayiş olunub.




# Hərbi qulluqçularımız Serbiyada keçirilən beynəlxalq təlimdə iştirak edirlər








Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu Serbiyada keçirilən "Platinum Wolf-2025" çoxmillətli sülhü dəstəkləmə əməliyyatları təlimində iştirak edir.

Müdafiə Nazirliyi xəbər verir ki, beynəlxalq təlimdə atış, piyada və texnika ilə patrulluq, yaşayış məntəqələrində əməliyyatlar, yoxlama məntəqələrinin qurulması, izdiham və iğtişaşların qarşısının alınması, əsirlərlə davranış, döyüş zamanı yaralılara ilkin tibbi yardımın göstərilməsi, kütləvi qırğın silahlarından mühafizə və digər mərhələlər üzrə tapşırıqlar yerinə yetiriləcək.

Azərbaycan, ABŞ, Böyük Britaniya, Bolqarıstan, Bosniya və Hersoqovina, İtaliya, Macarıstan, Monteneqro, Rumıniya, Şimali Makedoniya və Yunanıstan hərbçilərinin iştirak etdiyi təlim iyunun 28-dək davam edəcək.

# Baş Qərargah rəisi Heydər Əliyev adına Hərbi İnstitutda olub



*Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü ərəfəsində müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev Heydər Əliyev adına Hərbi İnstitutda olub, hərbi təhsil müəssisəsinin zabit, kursant və professor-müəllim heyəti ilə görüşüb.*

Müdafiə Nazirliyi xəbər verir ki, əvvəlcə institutun ərazisində ucaldılan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin heykəli önünə və şəhidlərin Xatirə kompleksinə gül dəstələri düzülüb, xatirələri ehtiramla yad edilib.



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunda, xüsusilə hərbi təhsil sahəsində aparılan uğurlu islahatlardan danışan Baş Qərargah rəisi Azərbaycan Ordusunda tətbiq olunan beynəlxalq hərbi təcrübənin və müasir texnoloji yeniliklərin hərb elmi və təhsil sisteminin inkişafına müsbət təsir göstərdiyini bildirib.



Azərbaycan Respublikasının Prezidentinin Türkiyənin Kahramanmaraş şəhərində "Azərbaycan" məhəlləsinin açılış mərasimi zamanı qardaş ölkə ilə bağlı səsləndirdiyi fikirləri diqqətə çatdıran general-polkovnik K.Vəliyev ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu və yüksək səviyyədə olduğunu qeyd edib.



General-polkovnik K.Vəliyev hərbi institutda təhsil alan kursantlara öz üzərlərində daim çalışmaq və ixtisas hazırlığına xüsusi diqqət yetirərək peşəkar zabit kimi inkişaf etmək ilə əlaqədar tövsiyələrini verib, onlara xidmətlərində uğurlar arzulayıb.

Sonda təhsilin daha keyfiyyətli təşkili ilə bağlı müdafiə nazirinin göstərişləri hərbi təhsil müəssisəsinin rəhbərliyinə çatdırılıb və aidiyyəti vəzifəli şəxslərə konkret tapşırıqlar verilib.

# Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününə həsr olunmuş şahmat turniri keçirildi



(Əvvəli 1-ci səhifədə)

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsi 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü münasibətilə həmkarlar təşkilatı üzvləri arasında şahmat turniri keçirdi.

Turnir Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 4 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbində reallaşdı.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin sədr müavini Aygün Məmmədova turniri açıq elan edərək iştirakçılara uğurlar arzuladı: "Bu gün biz - xalq və ordu olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin yaranmasının şərəfli ildönümünü qeyd edirik. 1918-ci il iyunun 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin qərarı ilə ilk müntəzəm ordu quruculuğuna başlanıldı və bu gün - 26 İyun, müstəqil dövlətimizin hərbi qüdrətinin təməl günü kimi tarixə yazıldı.

Azərbaycanın müasir Silahlı Qüvvələri Ümummilli Liderimiz Heydər Əliyevin dövlətçilik strategiyasının əsas sütunlarından biri olmuşdur. Ulu Öndər hər zaman deyirdi: "Güclü ordu - güclü dövlət deməkdir". Məhz Ulu Öndərin ordu quruculuğuna verdiyi xüsusi önəm və sonrakı illərdə bu siyasətin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev tərəfindən davam etdirilməsi nəticəsində bu gün Azərbaycan Ordusu Cənubi Qafqazın ən güclü ordusuna çevrilmişdir.

2020-ci ildə rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandanın rəhbərliyi ilə torpaqlarımızı işğaldan azad etdi. Qarabağ zəfəri - xalqın iradəsi, ordunun qəhrəmanlığı və Vətən sevgisinin təntənəsidir.

Silahlı Qüvvələrimizin sıralarında xidmət edən hər bir hərbi qulluqçu bizim qürurumuzdur. Onların rəşadəti, vətənpərvərliyi və fədakarlığı sayəsində ölkəmizin suverenliyi, ərazi bütövlüyü və təhlükəsizliyi təmin olunur".

Daha sonra Aygün Məmmədova yarışın şərtlərini turnir iştirakçılarının diqqətinə çatdırdı. Bildirdi ki, həvəskar şahmatçıların qatıldığı yarışda 20 nəfər həmkar üzvü birinci, ikinci və üçüncü yerlər uğrunda mübarizə aparır. Beynəlxalq dərəcəli FİDE hakimi Elvin Hüseynov və idman hakimi Kazım Kazımov bildirdilər ki, Blitz şahmat turniri 7 turdan ibarətdir. "Turnir kompüter vasitəsilə aparılır. Yerlər ardıcıllıqla müəyyən ediləcək və yekun nəticələr müəyyənləşəcək. Ən yüksək xal toplayan turnirin qalibi olacaq. Turnirdə eyni xal toplayan şahmatçıların yerləri də proqrama uyğun əmsallara görə müəyyən ediləcək. Beləliklə, daha güclü oyunçular üzərində qələbə qazanan oyunçunun əmsalları daha yüksək olacaq. Bütün bunlar kompüter sistemində öz əksini tapacaq".



Nəhayət, həmkar üzvləri arasında keçirilən şahmat turniri başladı. Gərgin və ciddi mübarizələrlə müşayiət olunan turnirdə həvəskar şahmatçılar qazandıqları bilik və təcrübələrini səfərbər edərək qalib gəlməyə çalışdılar.

Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin 26 İyun - Azərbaycan Respublikasının Silahlı Qüvvələri Gününə həsr etdiyi şahmat turniri uğurla başa çatdı.

Yekun nəticəyə görə qaliblər müəyyənləşdirildi. Həmkarlar təşkilatı üzvləri arasında keçirilən şahmat turnirində 1-ci yerin qalibi "N" hərbi hissəsinin əməkdaşı Kəlbiyev Elbrus oldu. 2-ci yeri Milli Müdafiə Universitetinin həmkar üzvü Rövşən Abdullayev, 3-cü yeri isə "N" hərbi hissəsinin həmkar üzvü Ramin Əliyev qazandılar.

Turnirin qaliblərinə Müdafiə Nazirliyinin Birləşmiş Həmkarlar İttifaqı Komitəsi tərəfindən pul mükafatı və fəxri fərmanlar təqdim edildi.

**Kapitan**
**Günay TAĞIYEVA**
**"Azərbaycan Ordusu"**

# "Qürurluyam ki, qalib ordunun əsgəriyəm"



(Əvvəli 1-ci səhifədə)

Hərbi xidmətdə keçən hər günümüz Vətən sevgimizi daha da artırır. Bizim məsuliyyətli və şərəfli xidmətimiz var. Vətən qoruyucusu olmaqdan hər birimiz qürur duyuruq. Biz nümunəvi xidmət edirik, vəzifələrimizin öhdəsindən uğurla gəlirik, Vətənin müdafiəsində inamla dayanırıq ki, xalqımız rahat və firavan yaşasın. İllərlə ərazi bütövlüyümüz uğrunda döyüşən, canlarından keçən qəhrəman oğullarımızın davamçılarıyıq. Onların əmanəti olan Vətənimizin suverenliyi və ərazi bütövlüyü uğrunda istənilən döyüş tapşırığını uğurla yerinə yetirməyə hər an hazırıq. Biz Vətənə sevgimizdən güc alırıq. 44 günlük Vətən Müharibəsində döyüşən qardaşlarımız xalqımızın döyüş əzmini, vətənpərvərliyini bütün dünyaya göstərdi. Qürurluyam ki, qalib ordunun əsgəriyəm və nümunəvi xidmətimlə ordumuza layiqli əsgər olmaq üçün səylə çalışıram.

**Əsgər**
**Rahid ƏLİYEV**
**"N" hərbi hissəsi**

Milli Qəhrəmanlarımız

# Bir ömrün qəhrəmanlıq səhifələri: Mübariz İbrahimov

***İnsan taleyinin səhifələri bəzən elə bir igidlik dastanı ilə yazılır ki, bu dastan zamanın axarında solmaz, unudulmaz olur. Azərbaycan torpağı da belə bir igidin - Mübariz Ağakərim oğlu İbrahimovun məğrur addımlarla yazdığı şəhidlik dastanını yaddaşında daşıyır. Bu il onun şəhidlik zirvəsinə ucalmasından 15 il keçir. Lakin zaman bu igidin adını xalqın yaddaşından silmədi, əksinə, daha da ucaltdı, ölümsüz etdi.***



Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. Orta təhsilini 2005-ci ildə şəhid Malik Piriyev adına Əliabad kənd orta məktəbində başa vurduqdan sonra həmin il müddətli həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların "N" hərbi hissəsində xidmətini başa vurub, 2007-ci ildə çavuş rütbəsi ilə ehtiyata buraxılıb.

Mübariz bir müddət mülki sahədə çalışdıqdan sonra, Vətən sevgisinin köksündə alovlanması ilə 2009-cu ilin avqustunda gizir rütbəsi ilə yenidən orduya qayıdıb. Cəbhə bölgəsində, ön xətdə yerləşən hərbi hissələrdə könüllü olaraq xidmətini davam etdirib. Onun ruhunda daim Vətənin ərazi bütövlüyünü qorumaq amalı yanıb.

2010-cu il iyunun 18-də gecə təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçərək Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz həmlə ilə tərk-silah edir. Sonra isə düşmənin öz silahlarını özlərinə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşür. Düşməni ağır itkilərə məruz qoyur. Amansız döyüşdə Mübariz İbrahimov qəhrəmancasına şəhid olur. Ancaq onun nəşinin düşmən tərəfindən geri alınması bir neçə aydan sonra mümkün olur və 2010-cu il noyabrın 7-də Bakıdakı İkinci Fəxri xiyabanda torpağa tapşırılır.

Canıyla, ruhuyla Vətən torpağına bağlı, 22 yaşında gənc nəslin qəlbinə adını əbədi yazmış Mübariz İbrahimovun şəhadətindən düz on il sonra - elə torpağa qovuşduğu günlərə təsadüf edən 8 Noyabr - Zəfər bayramımız bəlkə də ilahi bir müjdənin mesajıdır. Çünki 44 günlük Vətən müharibəsi göstərdi ki, bu gün Azərbaycan Ordusunda Mübariz ürəkli, Mübarizin qəhrəmanlıq bulağından su içən minlərlə cəsarətli Vətən övladları yetişib. Məhz həmin igidlərin sayəsində 2020-ci il oktyabrın 4-də Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun düşmən qüvvəsini məhv etdiyi posta Azərbaycan Bayrağı sancılıb.

Azərbaycan Respublikası Prezidentinin 22 iyul 2010-cu il tarixli Sərəncamı ilə Mübariz Ağakərim oğlu İbrahimova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilib.

Bu gün Mübariz İbrahimovun adı məktəblərə, parklara, küçələrə verilir. Onun igidliyi gənclərimiz üçün vətənpərvərlik nümunəsinə çevrilib. Hər il onun şəhidliyinin ildönümü xalqımız tərəfindən dərin ehtiramla anılır.

Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksələn, ölümləriylə ölümsüzləşən Mübariz İbrahimov kimi oğullar öz qəhrəmanlıqları ilə bir daha sübut etdilər ki, Vətən sevgisi hər şeyin önündədir. Onlar yalnız cismi ilə deyil, ruhlarının yenilməzliyi ilə düşmənə meydan oxuyurlar. Onların igidliyi xalqımızın çoxillik azadlıq və mübarizlik tarixinin şanlı səhifələrindən biri kimi daim yaşayacaq. Ölümün ən ali pilləsinə yüksələn igidlərimiz azad və bütöv Azərbaycanın silinməz tarixində əbədi qalacaq.

**Eltun MƏMMƏDOV**
**"Azərbaycan Ordusu"**

# "Şəhid ömrünün davamı ömürlərimizdədi"



**(Əvvəli 1-ci səhifədə)**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində şəhid əsgər Nail Mahmudovun anım tədbiri keçirildi. Tədbiri mərkəzin zabiti baş leytenant Elçin Salmanov açıq elan etdi. Sonra Ulu Öndər Heydər Əliyevin, suverenliyimiz və ərazi bütövlüyümüz uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edildi, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbir açıq elan edildikdən sonra şəhid əsgər Nail Mahmudovun 19 illik ömrünə və hərbi xidmətinə həsr olunmuş video-çarx nümayiş etdirildi.

Nail Məqarif oğlu Mahmudov 1979-cu il noyabrın 24-də Şamaxının Çarhan kəndində anadan olmuşdu. Duyumlu uşaq olmuşdu, diqqətcil yeniyetməydi, qayğıkeş cavan kimi tanınırdı və sevilirdi. Məktəbdə müəllimləri, məhəllədə qonşuları onun xasiyyətinin gözəlliyindən ağızdolusu danışırdılar. Heç kimin xətrinə dəyməzdi, könül qırmazdı, könüllər alardı. Gücü çatan işin qulpundan yapışardı.

Müəllimlərinin də, şagird yoldaşlarının da sevimlisi idi. Sinif yoldaşlarının hamısı Naili özünün dostu bilirdi. Mehriban, həlim xasiyyətinə görə sevilən Nail təkcə sinfin deyil, məktəbin də ən nümunəvi şagirdlərindən biri idi...

Onları məktəbə aparan yol maraqlarının yolu idi, istəklərinin yolu oldu, arzularının yolu oldu. Bu yol onlara Vətəni də tanıdacaqdı. Onlar da Vətəni tanıya-tanıya sevəcəkdilər. Tanıdılar - sevdilər. Onda Nail Məqarif oğlu Çarhan məktəbinin şagirdi idi...

Nail boya-başa çatdı. Hamını sevə-sevə sevildi, hamının əzizi oldu. Xoş rəftarlı cavan kimi tanınırdı. Yalanı sevməzdi, dilinə yalan gəlməzdi.

Təhsil almaq istəyirdi. Ata-ana mehirli oğul idi. Elə təhsil almaq istəyirdi ki, bu təhsil onu kənddən qoparıb uzaqlara apara bilməsin. Torpağı sevmişdi, torpağı sevirdi. Şamaxıda Kənd Təsərrüfatı Texnikumuna daxil oldu. Təhsil aldıqdan sonra ata-anasının yanında qalacağına elə sevinirdi ki!..

Dürüstlüyü sevirdi - dürüst idi, idmana olan böyük marağı onu idmançı kimi formalaşdırmışdı. Hərbi xidmətə gedəndə hərbi hissədə həm əsgər yoldaşlarının məşqini təşkil etmişdi, həm də gözəl idman guşəsi yaratmışdı...

Vətəni sevirdi, vətənpərvər əsgər idi. Komandirlərinin bütün tapşırıqlarını məsuliyyətlə yerinə yetirirdi.

Müharibə başlamışdı. Nail və döyüş yoldaşları komandirin əmri ilə döyüşdə qalmış tankı çıxartmağa getmişdilər. Bu, ciddi hərbi əməliyyat idi. 1998-ci il iyunun 17-si idi...

Tankın on addımlığındaydılar. Nail tanka yaxınlaşanda yer-göy titrədi elə bil. Elə bil düşmən olan-qalan gücünü bura toplayıbmış. Elə bil ayaqlarının altında düşmən nəfəsi gəzişdi. Elə bil bura dünyanın qurtaran yeriydi. Nail gözucu da olsa əsgərlərə baxmaq istədi, sonra tanka sarı dönəcəkdi. Heç nə görə bilmədi. Ətraf duman idi. Dumanlığın o üzündən bir topa işıq görünürdü. O işıqda kəndlərini gördü, yol gözləyən anasını gördü, qaşları çatılmış atasını gördü, əlləri qoynunda qalmış bacısını gördü, qardaşlarını gördü - Sadiq başını Nicatın çiyninə söykəmişdi, bir qədər aralıda kölgə və bir də ağ əbalı övliya gördü...





Nail şəhid oldu...

Şamaxının Şəhidlər xiyabanında uyuyur. Şəkli sanki dil açacaq, deyəcək ki,

Göyün gözlərində yaş gilələndi,
Həsrət Göy üzündən nə dərdi,
Vətən?
Sənə sevgimizlə sənə qayıtdıq,
Şəhid yaşındayıq... Sədaqətimiz
Sənin ululuğun qədərdi, Vətən!
Bir vaxt əsgər idik... Son gülləmizi
atmağa çatmadı son nəfəsimiz,
İndi də ruhumuz əsgərdi,
Vətən!..

Şəhid Nail Mahmudov tarixdə də yaşayacaq, onu tanıyanların ürəyində də...

Müdafiə Nazirliyi Mətbuat və İctimaiyyətlə Əlaqədar İdarəsinin Şəhid Ailələri və Qadınlarla iş sektorunun müdiri Zümrüd Səmədova respublikamızda şəhidlərə dövlət qayğısından söz açaraq bildirdi ki, bu istiqamətdə görülən tədbirlər həmişə genişləndirilir, mahiyyətcə yenilənir. Şəhid ailələri dövlət qayğısı ilə əhatələnib ki, bu da ictimaiyyət-dövlət münasibətlərinin daha da dərinləşdiyinin təzahürüdür. Müdafiə Nazirliyinin zabiti polkovnik-leytenant Vidadi Kərimov şəhidlərin anım tədbirlərinin gənc nəslin vətənpərvərlik ruhunda formalaşmasında əhəmiyyətindən danışaraq, şəhid Nail Mahmudovun anım tədbirini bu baxımdan gərəkli tədbir kimi xarakterizə etdi.

Şəhid Nail Mahmudova həsr olunmuş "Yayda sərin yel əsdi" kitabının müəllifi Rəşid Faxralı şəhid əsgərin mənəvi keyfiyyətlərini, döyüş yolunu ümumiləşdirən epizodlar danışdı...

Şəhidin atası Məqarif Mahmudov, şəhidin qardaşı Nicat Mahmudov tədbirin təşkilatçılarına minnətdarlıqlarını bildirdilər.

Hərbi Nəşriyyatın rəisi polkovnik-leytenant Namiq Cavadov bu kimi tədbirlərin ideoloji səmərəsindən, ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında əhəmiyyətindən, Nail Mahmudovun 19 illik ömrünün azərbaycançılıq işığından söz açdı...

Tədbirdə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri şəhid Nail Mahmudovun ruhuna həsr olunmuş vətənpərvərlik mahnıları ifa etdilər.

Tədbirin sonunda iştirakçılara şəhid əsgər Nail Mahmudova həsr olunmuş "Yayda sərin yel əsdi" kitabı hədiyyə olundu...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

**Mövzu:** Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikasını və silahları öyrənmək hər bir döyüşçünün borcudur.

**Suallar:**

**1. Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir.**

**2. Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur.**

### Hərbi biliyə dərindən yiyələnmək, döyüş texnikası və silahlardan bacarıqla istifadə etmək döyüşdə qələbəni təmin edir

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsinin tələblərinə əsasən, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçusu öz Vətəninin - Azərbaycan Respublikasının müdafiəçisidir. Hərbi qulluqçu öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır.

O, Azərbaycan dövlətinin mənafeyini qorumağa, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərməyə, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına müqəddəscəsinə və sarsılmaz surətdə riayət etməyə, Hərbi Andı yerinə yetirməyə, intizamlı, vicdanlı, doğruçu və cəsarətli olmağa, hərbi borcunu yerinə yetirərkən bütün qüvvəsini və lazım gəldikdə canını da əsirgəməməyə, komandirlərə (rəislərə) sözsüz tabe olmağa və döyüşdə onları müdafiə etməyə, öz hərbi hissəsinin Döyüş Bayrağını göz bəbəyi kimi qorumağa borcludur.

Hərbi qulluqçu Hərbi Nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, vicdanla yerinə yetirməli; hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli; ona tapşırılmış silahları, döyüş texnikasını və digər texnikanı mükəmməl bilməli, həmçinin hərbi əmlakı və xalq əmlakını qorumalı; ağlabatan təşəbbüslər göstərməli; hərbi xidmətin bütün çətinlik və məhrumiyyətlərinə mətinliklə dözməli; döyüşçü yoldaşlığına sadiq olmalı, öz yoldaşlarına sözü və işi ilə kömək etməli, onları nalayiq hərəkətlərdən çəkindirməli, həyatını əsirgəmədən təhlükədən xilas etməli; sayıq olmalı, hərbi və dövlət sirlərini ciddi surətdə saxlamalıdır.

Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu Vətən qarşısında müqəddəs borcunu dərindən dərk edərək hərbi biliyə dərindən yiyələnməli və daim döyüş hazırlığını təkmilləşdirməlidir. Cənubi Qafqazda strateji mövqeyini nəzərə alan Azərbaycan dövləti tamamilə haqlı olaraq öz ordusunun gücünü, hərbi kadrların peşəkarlıq səviyyəsini durmadan artırır, hərbi qüdrətini yüksəldir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev öz çıxışlarında dəfələrlə vurğulayıb: "Ordu quruculuğu, müdafiə potensialının möhkəmlənməsi və güclü ordunun yaranması dövlət üçün, hökumət üçün, hər bir vətəndaş üçün bir nömrəli vəzifədir".

Döyüş - qoşunların taktiki fəaliyyətinin əsas forması, bölmələrin müəyyən ərazidə qısa müddət ərzində düşməni məğlub (darmadağın) etmək və digər taktiki tapşırıqları yerinə yetirməsi məqsədilə hədəfə və vaxta görə əlaqələndirilmiş zərbə və manevrdən ibarət müxtəlif hərbi birləşmələrin, hərbi texnika və silahların tətbiq olunduğu mütəşəkkil silahlı toqquşmadır.

O, hərbi hissə və bölmələrin taktiki fəaliyyətlərinin əsas forması olmaqla, şəxsi heyətin mənəvi və fiziki qüvvələrinin hərtərəfli sınağıdır. Onun uğuru əsasən döyüşü aparmaq üçün insanların cəsarətindən, dözümlüyündən, mənəvi keyfiyyətlərindən, hazırlıq səviyyəsindən və texnikanın hazırlığından asılıdır. Qələbə düşmənin döyüşdə darmadağın edilməsi və bütün silah növlərinin güclü və dəqiq zərbələri, onların nəticələrindən vaxtında istifadə, birləşmə, hissə və bölmələrin fəal və qətiyyətli hərəkəti ilə əldə edilir. Müasir döyüş öz xarakterinə görə ümumqoşun döyüşüdür. Bu döyüşdə əsgərin rolu qat-qat artır. O öz Vətəninin müdafiəsi üçün şəxsi məsuliyyət daşıyır. Əməliyyatların qətiyyətliliyinin təmin olunmasında şəxsi heyətin yüksək mənəvi-döyüş keyfiyyətləri, onun qələbəyə sarsılmaz inamı, silahları və döyüş texnikasını mükəmməl bilməsi və bacarıqla tətbiq etməsi böyük rol oynayır. 1992-1994-cü illərdə Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə, döyüşçülərimizin texnika və silahlardan bacarıqla istifadə edərək düşmənin zirehli texnikasına, müdafiə qurğularına, canlı qüvvəsinə vurduqları ciddi zərbələrin döyüş müvəffəqiyyətinə təsiri barədə nümunələr çoxdur. Lakin təəssüf hissi ilə qeyd etmək lazımdır ki, 1992-1993-cü illərdə Azərbaycan Ordusu hissələrinin apardıqları bir sıra döyüş əməliyyatlarının müvəffəqiyyətsizliyə uğramasının əsas səbəblərindən biri də bəzi döyüşçülərin onlara həvalə olunmuş silah və texnikaların döyüş imkanlarını zəif bilmələri və bu imkanlardan döyüşdə tam istifadə edə bilməmələri idi. Buna səbəb isə müstəqilliyin ilk günlərindən ordunun yaradılması prosesinin bilavasitə döyüşlər getdiyi dövrdə formalaşması, Azərbaycan Ordusunda şəxsi heyəti hazırlamaq üçün kifayət qədər kadrların və lazımi tədris bazasının olmaması, vaxt məhdudluğu idi. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin ağır günlərində ikinci dəfə hakimiyyətə gəlişi Silahlı Qüvvələrdə dəmir nizam-intizam yaratması, əsl ordu quruculuğuna start verməsi ilə nail olundu. Bunun məntiqi nəticəsi olaraq Qarabağ bölgəsində gedən döyüşlərdə Azərbaycan Ordusunun qəhrəman döyüşçülərinin məkrli düşmənin hücumlarının qarşısını alaraq cəbhədə əks-hücum əməliyyatları həyata keçirdilər və bir sıra yaşayış məntəqələrimizi yağılardan azad etdilər. Qısa zaman kəsiyində peşəkar, nizam-intizamlı, hərb sənətinin bütün incəliklərinə malik olan yüksək səviyyəli ordu yaradıldı. Azərbaycan hərbçiləri xarici ölkələrin, xüsusilə Dağlıq Qarabağ münaqişəsi başlayan gündən daim yanımızda olan, öz təmənnasız dəstəyini nümayiş etdirən dost-qardaş Türkiyənin yüksək səviyyəli ali hərbi məktəblərinə oxumağa, təcrübə keçməyə göndərildilər. Azərbaycan Ordusunun maddi-texniki bazasının gücləndirilməsinin, zabit-əsgər heyətinin yüksək hərbi hazırlığa və vətənpərvərlik əhval-ruhiyyəsinə malik olmasının nəticələri özünü 2016-cı ilin aprelində və 2020-ci ilin iyulunda qısamüddətli döyüşlər zamanı işğalçı qüvvələrə sarsıdıcı zərbələr endirərək onu geri çəkilməyə məcbur etməklə göstərmişdir. Vətən müharibəsi isə işğalçı Ermənistan ordusunun Azərbaycan Ordusu tərəfindən tamamilə darmadağın olunması və işğal altında qalan ərazilərimizin azad edilməsi ilə nəticələndi. Ordumuz döyüş meydanındakı əməliyyatları ilə dünyanın hərb tarixində yeni nümunələr yaratdı. Silahlı Qüvvələrimizdə ötən son 19 ildə Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin xüsusi diqqəti altında həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapdı.

### Hərb işini vicdanla öyrənmək Azərbaycan Ordusunun hərbi qulluqçularının borcudur

Azərbaycan Respublikası Konstitusiyasının 76-cı maddəsində göstərilir ki, Vətəni müdafiə hər bir vətəndaşın borcudur. Azərbaycan Ordusunun sıralarına daxil olan hər bir Azərbaycan vətəndaşı öz Vətəni və xalqı qarşısında təntənəli surətdə Hərbi And içir. Hərbi And hər bir hərbi qulluqçudan;

- Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etməsini, Hərbi Andın tələblərini yerinə yetirməsini, sayıq olmasını, Azərbaycanın mənafeyini, onun suverenliyini, ərazi bütövlüyünü, müstəqilliyini şərəflə qorumasını, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməməsini;
- hərbi işi vicdanla öyrənməsini, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlamasını, öz vəzifələrini nümunəvi yerinə yetirməsini, hərbi nizamnamələrin tələblərini möhkəm bilməsini və vicdanla yerinə yetirməsini;
- əmr və göstərişləri sözsüz, tez və vaxtında yerinə yetirməsini, igid və intizamlı olmasını, nalayiq hərəkətlər etməməsini və yoldaşlarını da belə hərəkətlərdən çəkindirməsini;
- dövlət sirrini qorumasını, böyüklərə hörmət etməsini, hərbi nəzakət, davranış qaydalarına ciddi əməl etməsini; - silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilməsini;
- əcdadların hərbi ənənələrini şərəflə davam və inkişaf etdirməyi, hər an əldə silah Vətənin müdafiəsinə qalxmağa hazır olmağı tələb edir.

Ümummilli Liderimiz Heydər Əliyevin hərbi qulluqçularla görüşündə dediyi "Orduda hər bir əsgər, hər bir zabit, hər bir general bilməlidir ki, o özünü hərbi peşəyə həsr edir. Hərbi peşə isə Vətəni, torpağı qorumaqdır. Vətəni, torpağı qorumaq üçün isə gərək gücün olsun və əgər kimsə sənin torpağına, Vətəninə qəsd edirsə, ona layiqli cavab verə, layiqli zərbələr endirə biləsən" sözləri bu gün də Azərbaycan Ordusunun hər bir hərbi qulluqçusu üçün ən dəyərli tövsiyədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili Xidmət Nizamnaməsində hərbi qulluqçuların əsas vəzifələrindən biri kimi müəyyən edilir ki, hərbi qulluqçu hərbi nizamnamələrin tələblərini və öz vəzifələrini yaxşı bilməli, onları vicdanla yerinə yetirməli, hərbi biliklərini müntəzəm surətdə təkmilləşdirməli, ona tapşırılmış silahları, döyüş texnikası və digər texnikanı mükəmməl öyrənməlidir.

Daxili Xidmət Nizamnaməsi tələb edir ki, əsgər (matros) hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın, silahını, döyüş texnikası və digər texnikanı yaxşı bilsin. Bu gün regionda yaranmış hərbi-siyasi vəziyyət Azərbaycan Ordusunun hissə və birləşmələrinin daim döyüş hazırlıqlı və ərazi bütövlüyümüzə qarşı yönəldilən hər bir təcavüzə layiqli cavab verməyə qadir olmasını tələb edir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan dövlətinin bu istiqamətdə yürütdüyü siyasətin məğzini, məqsədini çox aydın və dürüst şəkildə belə ifadə edib: "Biz bütün sahələrdə orduda gedən proseslərin inkişafına çalışırıq. Son illər ərzində maddi-texniki bazanın möhkəmləndirilməsində böyük işlər görülmüşdür, çoxlu texniki avadanlıq, müasir silahlar alınmışdır və beləliklə, Azərbaycan Ordusu xeyli dərəcədə güclənmişdir. Biz bu prosesi davam etdirəcəyik".

Azərbaycan Respublikası Prezidentinin, Silahlı Qüvvələrin Ali Baş Komandanının və müdafiə nazirinin 2025-ci tədris ili üçün Azərbaycan Ordusu qarşısında qoyduqları əsas vəzifələrdən biri də hərbi hissə və bölmələrin döyüş qabiliyyətini yüksəltmək, döyüş tapşırıqlarını yerinə yetirməyə həmişə hazır olmaqdır. Bunun üçün isə hərbi hissələrdə intensiv döyüş hazırlığı prosesi təşkil olunmalıdır. Şəxsi heyət zabitlərin, gizirlərin və çavuşların rəhbərliyi altında döyüş və ictimai-siyasi hazırlıq məşğələlərində hərb işinin sirlərinə yiyələnməli, döyüş texnikasından və silahlardan bacarıqla istifadə etmək üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da təkmilləşdirməli, mənəvi-psixoloji hazırlıqlarını artırmalıdır. Hər bir hərbi qulluqçu dərk etməlidir ki, o öz vəzifə borcunu vicdanla yerinə yetirməklə, döyüş və ictimai-siyasi hazırlıq dərslərində, təlimlərdə hərbi biliklərə dərindən yiyələnməklə, mənəvi-psixoloji və fiziki hazırlığını artırmaqla, intizamlı olmaqla özünü Vətəninin müdafiəsi üçün hazırlayır.

**Qeyd**: *Hər bir hərbi hissənin öz təyinatına görə döyüş tapşırıqları var. Bu tapşırıqları yerinə yetirmək üçün hissə və bölmələr kifayət qədər müasir texnika və silahlara, sursata malikdir. İctimai-siyasi hazırlıq sistemində öyrənilən bu mövzuda hərbi qulluqçuların onlara həvalə olunmuş döyüş texnikasından, digər texnikadan və silahlardan bacarıqla istifadə etmələri üçün öz biliklərini, bacarıqlarını və vərdişlərini daha da artırmağı, Azərbaycan xalqı və dövləti qarşısında Vətənin müdafiəsi, Azərbaycan dövlətinin mənafeyini qorumağı, onun nüfuzunun və qüdrətinin möhkəmlənməsinə səy göstərmək məsuliyyətlərini şüurlu surətdə dərk etmələri izah edilməlidir.*

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

(Əvvəli 1-ci səhifədə)

Fiziki hazırlıq

# Güc həm də mənəvi qüdrətdir



Ordumuzun bütün bölmələrində şəxsi heyətin gündəlik fəaliyyətində fiziki hazırlıq məşğələsi xüsusi önəm daşıyır. Təcrübəli komandirlər əsgərləri həm idmana, həm də sağlam həyat tərzinə həvəsləndirir, onları gələcək uğurlar üçün ruhlandırırlar.

"N" hərbi hissəsinin idman şəhərciyində məşğələ rəhbəri gizir Zöhrab Əsədov şəxsi heyətə müvafiq təlimatları çatdırdı. Sonra şəxsi heyət təlimata uyğun olaraq fiziki hazırlıq məşğələsinə başladı. Qaçış zolağında addımların ahəngdarlığı eşidilirdi, hər təkrarda iradə bir az da möhkəmlənirdi. Hər biri idman hərəkətlərini bacarıqla və həvəslə yerinə yetirirdi. Məşğələ başa çatdıqdan sonra idmanın mahiyyətini və döyüş hazırlığına müsbət təsirlərini onların öz dilindən eşitdik.

Həmsöhbətim Tovuz rayonundan olan Cavid Qasımov 6 aydır hərbi xidmətdədir. Uşaqlıq illərindən idmana böyük marağı olub. O, idman arenalarında qazandığı uğurlardan həvəslə danışırdı: "İlk dəfə güləş paltarını geyinib, idman zalına daxil olanda 10 yaşım var idi. Müəllimim mənə dedi ki, daşıdığın bu idman formasının yükü böyükdür, uğur qazanmaq üçün əzmlə məşq edən, zəhmət çəkən məğlub olmaz. Azərbaycan birinciliyində 2-ci və 3-cü yerləri tutanda bu kəlmələrin mahiyyətini anladım, bir daha əmin oldum ki, idman əzmdir, qətiyyətdir. Bu hər işdə belədir. Bir sahədə uğur qazanmaq istəyirsənsə, daim öz üzərində çalışmalısan. Hərbi xidmətdə də biz əlimizdən gələni edirik ki, qalib ordumuza layiqli, yüksək döyüş hazırlığına malik əsgərlər kimi formalaşaq. Bu prosesdə də fiziki hazırlıq məşğələlərinin mahiyyəti böyükdür. İdman bizim sağlamlığımızı möhkəmləndirir, gücümüzü və döyüş ruhumuzu artırır", - deyə Cavid Qasımov vurğuladı.

Əsgər Qafar Qəhrəmanov da uşaqlıqdan idmanla mütəmadi məşğul olub. Bakı şəhəri üzrə keçirilən yarışlarda iki dəfə 2-ci yerin qalibi olub. O, idmanın mahiyyətindən danışdı: "15 yaşımdan idmanın sərbəst güləş növü ilə məşğul olmağa başlamışam, indi də idmanla mütəmadi məşğul oluram. İdman təkcə fiziki güc deyil, həm də zehni güc mənbəyidir. Həmçinin idman insanı pis vərdişlərdən uzaqlaşdırır. Hərbi hissədə fiziki hazırlığımızı artırmaq üçün hər cür şərait yaradılıb. Hərbi xidmətin bizə aşıladığı müsbət keyfiyyətlərdən biri də idmana həvəsi artırmaqdır", - əsgər belə dedi.

Əslən Lənkərandan olan Nurəli Həxiyev idmanın qarışıq döyüş növü (MMA döyüş növü) ilə məşğul olub. O da öz uğurlarından fəxrlə danışdı: "Mən Cənub bölgəsində və respublika üzrə keçirilən yarışlarda öz yaşıdlarım arasında məşğul olduğum idman növü üzrə 2-ci yeri tutmuşam. Hərbi xidmətdə də idmanla həvəslə məşğul oluram. Bütün idman normativlərini uğurla yerinə yetirirəm. Fiziki göstəricilərimin yaxşı olması xidmətimin uğurlu təşkilinə müsbət təsir edir".

"N" hərbi hissəsində xidmət edən əsgərlərin hər addımı inamdır, qətiyyətdir. İdman meydançasında qaçan əsgərlərin hər addımı, turnikdə asılan əllərin hər dartınması və əzmlə icra edilən digər idman hərəkətləri bir amal üçündür: "Vətən üçün güclü ol!" Bu isə gümrah bədən, dəmir iradə, zirehli güc, sağlam ruh deməkdir. Güc həm də mənəvi qüdrətdir.

Bir daha şahidi olduq ki, Azərbaycan Ordusunun əsgərlərinin idmana həvəsi yüksəkdir, fiziki göstəriciləri yaxşıdır və bu da onların döyüş hazırlığının yüksəldilməsinə müsbət təsir edir. Onlar üçün idman yarışdan ibarət deyil, idman onlar üçün bu torpaq, bu Vətən qarşısında müqəddəs anddır - hər zaman güclü olmaq, hər zaman çevik, möhkəm, qətiyyətli olmaq andıdır.

**Şəlalə DÜNYAMALIYEVA**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar



### İspaniya NATO-nun hərbi xərcləri ÜDM-in 5 faizinə çatdırmaq təklifini rədd edib

İspaniya hökuməti NATO-nun baş katibi Mark Rütte-nin qarşıdakı sammit ərəfəsində müdafiə xərclərinin ümumi daxili məhsulun (ÜDM) 5 faizinə qədər artırılması ilə bağlı müraciətini rədd edib.

İspaniyanın RTVE telekanalı xəbər verir ki, bu barədə krallığın Baş naziri Pedro Sançes məktubla məlumat verib. O, belə bir öhdəliyin yalnız əsassız deyil, həm də əks-təsirli ola biləcəyini bildirib. Baş nazirin fikrincə, hər bir NATO üzvü bu cür xərclərə hazır olub-olmadığına özü qərar verməlidir.

Bununla yanaşı, Sançes İspaniyanın NATO qarşısında tam sadiqliyini vurğulayıb və ölkəsinin "qarşıdakı illərdə öz öhdəliklərini yerinə yetirməyə davam edəcəyini" və "Avropanın təhlükəsizlik arxitekturasına aktiv töhfə verəcəyini" bəyan edib.

### Dmitri Peskov: İran Rusiyadan hərbi yardım istəməyib



Rusiya və İran arasında hərtərəfli strateji tərəfdaşlıq haqqında müqavilədə qarşılıqlı hərbi yardım haqqında müddəa yoxdur və Tehran Moskvadan bu cür yardım istəməyib.

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bu barədə RBK telekanalına müsahibəsində deyib.

Onun sözlərinə görə, Rusiyanın dəstəyi göz qabağındadır: "Münaqişə başlayandan bəri İsrailin hərəkətini pisləyən bəyanatımız olub. Biz İrana qarşı zərbələrin dayandırılması və məsələnin danışıqlar yolu ilə həlli istiqamətində israrlı mövqe bildirmişik".

D.Peskov, həmçinin Moskvanın İran-İsrail münaqişəsinin həllində vasitəçilik etməyə hazır olduğuna diqqət çəkib. "Prezident Vladimir Putin bunu həm amerikalı həmkarı Donald Trampla, həm İsrailin Baş naziri Benyamin Netanyahu ilə, həm də İran Prezidenti Məsud Pezeşkianla apardığı telefon danışıqlarında müzakirə edib", - deyə mətbuat katibi bildirib.



### Somalidə “əş-Şəbab” qruplaşmasının 25 üzvü öldürülüb

Somalinin cənubundakı Aşağı Cuba əyalətində keçirilən hərbi əməliyyatda "əl-Qaidə" terror təşkilatı ilə əlaqəli olan "əş-Şəbab" silahlı qruplaşmasının 25 üzvü öldürülüb.

Öldürülənlər arasında qruplaşmanın liderləri də var.

Həmçinin qeyd edilir ki, qruplaşma üzvlərinin mülki şəxsləri hədəf almaq üçün istifadə etdiyi mühüm bazalar və döyüş maşınları məhv edilib. Hərbi əməliyyat planlı şəkildə Aşağı Cuba əyalətinin Bullo Hacı bölgəsi yaxınlığında həyata keçirilib.

Qeyd edək ki, Somali qüvvələri on ildən artıqdır ki, çox sayda mülki şəxsin və təhlükəsizlik qüvvələri əməkdaşının həyatına son qoymuş hücumlara görə məsuliyyət daşıyan "əş-Şəbab" qruplaşması ilə mübarizə aparır. Son aylar ərzində ordu, qruplaşmanın nəzarətində olan bir sıra əraziləri geri almağa müvəffəq olub.

**AZƏRTAC-ın materialları əsasında**

# İdman




### Dünya çempionatı: Azərbaycan cüdoçuları fərdi yarışlarda üç medal qazanıblar

Macarıstanın paytaxtı Budapeştdə cüdo üzrə dünya çempionatı davam edir.

Yarışın yeddinci günündə Azərbaycanın sonuncu cüdoçusu mübarizəyə start verib. 100 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Uşanqi Kokauri bürünc medal uğrunda görüşdə tacikistanlı Temur Raximova məğlub olub və medalsız qalıb.

Qeyd edək ki, mundialda Azərbaycanı 10 çəki dərəcəsində 13 cüdoçu (9 kişi, 4 qadın) fərdi yarışlarda təmsil edib.

Bununla da idmançılarımız fərdi yarışlarını üç medalla başa vurublar. Yığma üzvlərindən Zelim Tçkayev (81 kiloqram), Elcan Hacıyev (90 kiloqram) və Zelim Kotsoyev (+100 kiloqram) bürünc medal qazanıblar. Milli komanda, həmçinin qarışıq komanda yarışında mübarizə aparacaq.

### Xankəndidə karate klubu yaradılıb




Azərbaycan Karate Federasiyasının (AKF) nəzdində "Xankəndi" karate klubu yaradılıb.

Artıq fəaliyyətə başlayan klubun rəhbəri və baş məşqçisi Murad Səmədzadə təyin edilib.

Bildirilib ki, bu mühüm addım bölgədə idmanın inkişafına, gənclərin sağlam ruhda yetişməsinə və milli dəyərlərimizin təbliğinə xidmət edəcək.



### Avarçəkmə üzrə açıq Bakı birinciliyi keçirilib

Bakı Şəhər Gənclər və İdman İdarəsi, Azərbaycan Kanoe və Avarçəkmə Federasiyasının (AKAF) birgə təşkilatçılığı ilə açıq Bakı birinciliyi keçirilib.

Yeniyetmə və gənc avarçəkənlər arasında gerçəkləşən yarışda Bakı və Mingəçevirdən olan 100-ə yaxın idmançı iştirak edib.

Reqlamentə əsasən, avarçəkənlər kayak növündə həm 1, həm də 2 nəfərlik qayıqda, kanoe və akademik avarçəkmədə isə 1 nəfərlik qayıqda 500 metr məsafədə mübarizə aparıblar. Maraqlı mübarizə şəraitində keçən birinciliyin qaliblərı diplom və medallarla mükafatlandırılıblar.

**AZƏRTAC-ın materialları əsasında**

Rəhimov Maşallah Xalıq oğluna verilmiş MV № 120215 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Həşimli Nizami Ziyarət oğluna verilmiş MV № 105923 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Seyidəliyev Ramil Fətəli oğluna verilmiş MV № 140876 nömrəli müharibə veteranı vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Quliyev Orxan Elşən oğluna verilmiş AD № 0033676 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.

**Redaktor**
mayor
Ceyhun CƏFƏRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, Yasamal rayonu, Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

“Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək həftədə iki dəfə (III və VI günlər) Müdafiə Nazirliyinin Hərbi Nəşriyyatının mətbəəsində hazır diapozitivlərdən çap olunur. Təqdim edilən əlyazmalara rəy verilmir, müəllifə qaytarılmır. Qəzeti Müdafiə Nazirliyinin rəsmi internet səhifəsindən (www.mod.gov.az) oxuya bilərsiniz.

**Növbətçi**
baş leytenant
Əli ABIYEV

Lisenziya № 361
Sifariş № 268
Nüsxə 3630